# Azərbaycan şərqşünaslığının inkişafında Həmid Araslının rolu

**Səriyyə Gündoğdu**
*AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent*

Həmid Araslı XX əsr Azərbaycan elmi və ədəbi-ictimai həyatında aparıcı mövqeyə malik bir şəxsiyyətdir. Geniş diapazonlu alim Azərbaycan ədəbiyyatını, xüsusilə mövzu rəngarəngliyi ilə seçilən qədim və orta əsrlər dövrünü, şifahi xalq yaradıcılığını, folklorumuzu, Azərbaycan ədəbiyyatının qidalandığı ədəbi-bədii qaynaqları, bədii fikrimizin əsas inkişaf meyllərini  və bir çox nəzəri problemləri tədqiqat obyektinə çevirmişdir. Həmid Araslı yaradıcılığı boyunca qüdrətli söz ustalarımızın təsir dairəsinin araşdırılması kimi ədəbi məsələlərlə yanaşı, Şərq xalqlarının bir-biriylə söz sənəti vasitəsilə də qarşılıqlı əlaqələrini müəyyənləşdirən çoxcəhətli elmi axtarışlar aparmışdır. Məhz bu yöndə apardığı tədqiqatlarla  Azərbaycan şərqşünaslığının inkişafında böyük rol oynamışdır.

Qüdrətli alim orta əsrlər Azərbaycan ədəbiyyatının qarşılıqlı əlaqələrinin üzə çıxarılmasında mühüm işlər görmüşdür. Alimin qədim Şərq mədəniyyətinə, ərəb, fars dillərinə dərindən bələd olması onun klassik Şərq şeirinin görkəmli korifeyləri Firdovsi, Hafiz, Cami, Nəvai kimi digər dünya şöhrətli şəxsiyyətləri yaxından öyrənməsinə, eləcə də orta əsrlər ədəbi-mədəni əlaqələrimizin tədqiqinə aid Füzuli, Nəvai, Kəminə, Gülşəhri ilə yanaşı T. Fikrət, R.M.Əkrəm, haqqında maraqlı tədqiqatları meydana çıxarmasına səbəb olmuşdur. Əlli ilə yaxın yaradıcılıq yolu keçmiş, öz tədqiq dairəsinin əhatəliyi ilə seçilən son dərəcə məhsuldar alimin fəaliyyətini araşdırdığımızda onun Azərbaycan şərqşünaslığının yaranmasında və inkişafındakı rolu aydın şəkildə görünür. Azərbaycan ədəbiyyatşünaslığının və şərqşünaslığının dünya miqyasında nüfuz qazanmasında H.Araslının böyük əməyi olmuşdur. Özbəkistan əməkdar elm xadimi adı alan H.Araslı Orta Asya respublikaları ilə yanaşı Türkiyə, İraq, İordaniya, həmçinin digər ölkələrin şərqşünasları arasında da böyük hörmət qazanmışdır.

Şərq ruhlu, Şərq mədəniyyətli, Şərq zövqlü, Şərq etiqadlı bir şəxsiyyət olan H.Araslı dini, tarixi, farsdilli ədəbiyyatı, əlyazma və mətbu kitabları hələ gənc yaşlarında oxuyub öyrənmişdir. H.Araslının SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının kitabxanasında Şərq əlyazmaları şöbəsinin yaranmasında mühüm rolu olmuş və o, həmin şöbənin müdiri

vəzifəsində çalışmışdır. O vaxtdan H.Araslı Azərbaycan və Şərq əlyazmalarını toplayıb öyrənmək, əlyazmalar fondunu yaratmaq kimi mühüm işə girişərək milli və eləcə də Şərq əlyazma irsinin tədqiqi işinə xüsusi maraq və qayğı göstərmişdir. H.Araslı sovet dövrünün Şərqə "köhnə dünya", ədəbiyyatına "köhnə ədəbiyyat", "köhnə əlifba" olaraq baxdığı bir zamanda F.Köçərlinin "türk şairlərinin babası" adlandırdığı Füzuli haqqında tədqiqat aparmışdır. Bununla yanaşı Şərq poeziyasının ənənələrini davam etdirən Məhəmməd Əfqani, Nemətullah Kişvəri, Fədayi, Əmani və onlarca bu kimi şairləri ilk dəfə H.Araslı Azərbaycan ədəbiyyatı tarixinə gətirmişdir. H.Araslı dünya şöhrətli şərqşünas alim, J.E.Bertelsin Şərq ədəbiyyatı haqqında yazdığı ən samballı toplunun redaktoru olmuşdur.



H.Araslı Türkiyə, İraq, İordaniya şərqşünas alimlərinin rəğbətini qazanmış, 1957-ci ildə Türk Dil Qurumuna fəxri üzv seçilmişdir. İraq Elmlər aqkademiyasının fəxri akademiki və islam sivilizasiyasını öyrənən İordaniya Kral cəmiyyətinin üzvü kimi yüksək adlara layiq görülmüşdür. H.Araslı öz şəxsində Azərbaycan şərqşünaslığına böyük nüfuz qazandırmış, onu dünya şərqşünaslığına tanıtmışdır. Görkəmli alimin gördüyü işlərin əhəmiyyəti Azərbaycan, Türkiyə, İraq, Misir, İordaniya, Rusiya, Özbəkistan və s. ölkələrdə, habelə Qərbin ensklopedik ədəbiyyatında dəfələrlə yüksək dərəcədə qiymətləndirilmiş və qeyd edilmişdir.

Belə ki, Füzulinin tədqiqiylə bağlı Türkiyə alimlərindən Kenan Akyüz, Kemal Edip, Müjgan Cunbur, Sedat Yüksel, Nevzat Üstün Özbəkistan xalq yazıçısı, akademik Qafur Qulam və digərlərinin H.Araslı haqqında təqdiredici fikirləri vardır.

H.Araslı apardığı tədqiqatlar zamanı dünyaca məşhur Avropa şərqşünas alimlərinin əsərlərindən istifadə etməklə yanaşı, türk təzkirəcilərinin əsərlərinə də müraciət etmişdir. Avropa alimi Elias Johan Gibbin və Hammerin "Osmanlı ədəbiyyatı tarixi" əsərlərində Füzuliyə geniş yer verdiklərini və oradan aldığı qeydləri tədqiqatlarında istifadə etmişdir. Türk ədəbiyyatı tarixinin inkişafında mühüm rolu olan, XX əsrin nüfuzlu siması, böyük alim Mehmet Fuad Köprülüzadə ilə şəxsi münasibət qurmuş, elmi mübadilələr aparmışdır. Bütün bunlar böyük alimin fəaliyyəti ilə hələ o dövrdə Azərbaycan şərqşünaslığının nə qədər geniş miqyasda inkişaf etdiyini göstərir.

H.Araslı XIII-XIV əsrlərdə Anadolu təkkə ədəbiyyatının öndə gələn şəxsiyyətlərindən biri olan Gülşəhri haqqında tədqiqat apararaq onu Azərbaycan ədəbiyyatının görkəmli şairi Nizami Gəncəvi ilə əlaqələndirmişdir. Belə ki, H.Araslı, böyük Anadolu şeyxi və şairi Gülşəhrinin Nizami Gəncəvidən təsirləndiyini və onun haqqında böyük heyranlıqla bəhs etdiyini üzə çıxarmışdır.

Nizami Gəncəvinin əsərlərinin ilk dəfə XIV əsrin sonlarında Qızıl Orda şairi Qütb tərəfindən türkcəyə tərcümə edildiyi müəyyənləşdirilsə də, H.Araslı Nizami şeirinin Qütbdən hələ yarım əsr öncə 1313-cü ildə Gülşəhri tərəfindən türk dilinə çevrildiyini böyük türk alimi Agah Sırrı Ləvəndin də tədqiqatlarına istinad edərək Azərbaycan şərqşünaslığında duyurmuşdur.

H.Araslı apardığı dərin tədqiqatlar sayəsində Nizami Gəncəvinin və Məhəmməd Füzulinin Şərq ədəbiyyatına böyük təsirini ortaya çıxarmışdır. Xorasanda dünyaya gələn və bütün Şərq ədəbiyyatında böyük iz buraxan islam alimi, şairi Əbdürrəhman Caminin Azərbaycan ədəbiyyatından, o cümlədən Xaqani, Nizami, Şah Qasım Ənvar və Əssar Təbrizi yaradıcılıqlarından təsirləndiyi H.Araslı tərəfindən tədqiq edilmiş və nümunələr vasitəsilə isbat edilmişdir. Bununla yanaşı bir çox Azərbaycan mütəfəkkirləri haqqında yeni məlumatlar H.Araslı tədqiqatları sayəsində üzə çıxarılmış və Azərbaycan şərqşünaslığına qazandırılmışdır. Hətta H.Araslı Azərbaycan ədəbiyyatının gücünü isbat edərcəsinə apardığı tədqiqatlarda Əbdürrəhman Caminin "Xosrov Dəhləvinin qəsidə sahəsində Xaqani səviyyəsinə yüksələ bilmədiyi" fikrini ayrıca göstərmişdir.

H.Araslı apardığı tədqiqatlarda yalnız Azərbaycan ədəbiyyatının Şərq ədəbiyyatına təsirini deyil, eyni zamanda Şərq ədəbiyyatının, xüsusilə də türk

ədəbiyyatının Azərbaycan ədəbiyyatına təsirini də üzə çıxarmışdır. Belə ki, "Tofiq Fikrət və Azərbaycan ədəbiyyatı" adlı yazısında T.Fikrətin nə qədər humanist bir şair olduğunu, hürriyyətpərvər və müstəmləkəyə, hərc-mərcliyə qarşı olduğunu vurğulayan alim, onun Azərbaycanda böyük şöhrət qazandığını yazır. Bunu məktəb kitablarından tutmuş qəzet və jurnallarda nəşr olunan şeirlərini göstərməklə yanaşı, T.Fikrəti Azərbaycanda ilk dəfə "Füyuzat" jurnalında Əli Bəy Hüseyinzadə tərəfindən geniş bir şəkildə tanıdıldığını məqaləsində qeyd edir. Eyni zamanda Azərbaycanın görkəmli şairləri M.Hadinin və H.Cavidin T.Fikrət yaradıcılığından təsirləndiyini bir çox örnəklərlə göstərmişdir. Məsələn H.Cavidin "Şeyx Sənan" və "İblis" əsərlərinin Azərbaycan dramaturgiya tarixində yeni bir yol açdığını qeyd edən alim, bu mənzum faciələrdə dil, ifadə, hətta ayrı-ayrı misallarda Fikrətin təsirinin duyulduğunu qeyd edir.

H.Araslı T. Fikrətin Abbas Səhhətə də dərin təsir göstərdiyini, hətta şairin öz əsərinə Fikrətin "Rübabışikəstəsi"ni örnək alaraq, "Qırıq saz" adını verdiyini yazır.

H.Arsalı əsl alim kimi apardığı obyektiv tədqiqat sayəsində T.Fikrətdən təsirlənən Azərbaycan şairlərinin siyahısını genişləndirir. H.Araslı "T.Fikrət və Azərbaycan ədəbiyyatı" yazısında T.Fikrəti sevən və onu Azərbaycan gənclərinə sevdirən Abdulla Şaiqin də T.Fikrət yaradıcılığından təsirləndiyini yenə örnəklərlə göstərmişdir. H.Araslı, A.Şaiqin M.Ə.Sabirin ölümü münasibətilə yazdığı şeirin T.Fikrətin "Füzuli"yə həsr etdiyi şeirə nə qədər çox bənzədiyini və A.Şaiqə nə qədər böyük təsir göstərdiyini örnəklərlə göstərir.

S.Vurğunun ictimai məzmunda yazdığı ilk şeirlərində T.Fikrət yaradıcılığının təsiri olduğunu göstərən H.Araslı, onun "Bayram gecəsi" şeirinin T.Fikrətin "Fərda"sını xatırlatdığı kimi, "Əyilmə" adlı əsərində də Fikrətin təsirinin hiss olunduğunu müəyyənləşdirir. H.Araslı C. Cabbarlı və Mikayıl Müşfiq yaradıcılığında da R. M.Əkrəm və T. Fikrət təsirindən bəhs edərkən adını sadaladığı ədiblərin T.Fikrətə duyduqları dərin məhəbbəti də qeyd etmişdir.

Şərq ədəbiyyatına dərindən bələd olan alim, T.Fikrəti sadəcə Azərbaycan ədəbiyyatı ilə deyil, fars ədəbiyyatı ilə də də qarşılaşdırır. Fikrət sənətinin XX əsr İran ədəbiyyatına da təsirini müəyyənləşdirən alim, Mirzadə Esqi, İrəc Mirzə, Arif Qəzvininin əsərlərində T. Fikrət təsirinin olduğunu tədqiqatlarında qeyd edir.

H.Araslı, "Sabir və Şərq ədəbiyyatı" adlı yazısında Sabirin Şərqin Firdovsi, Xəyyam, Sədi, N.Kamal, Mahmud Əkrəm, T.Fikrət kimi şairlərdən təsirlənməklə yanaşı, Sabir yaradıcılığının İran, Özbəkistan, Tatarıstan və Türkmənistanda yaranan yeni satirik şeir üçün nümunə olduğunu yenə nümunələr üzəridə göstərir. İran yazıçıları Sabir yaradıcılığından ilham alıb, Sabirin təsirində yeni məzmunlu əsərlər yaratmışlar. Cənubi Azərbaycanın məşhur satirik şairi Mirzə Əli Möcüzün Sabiri özünün üstadı hesab etdiyini qeyd edən H. Araslı, Lahuti başda olmaqla, bir çox mütərəqqi İran şairlərinin Sabir yaradıcılığından ilham aldığını üzə çıxarmışdır.

H.Araslı 1966-cı ildə beynəlxalq konfrans münasibətilə getdiyi Türkiyədə aldığı təəssüratları yazıb nəşr etdirməklə hələ o zaman Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin genişliyini və Azərbaycan şərqşünaslığının inkişafındakı rolunu göstərir. H.Araslı özünün rəngarəng və zəngin yaradıcılığında Azərbaycan ədəbiyyatının inkişafı ilə yanaşı, Azərbaycan şərqşünaslığının inkişafında da müstəsna rol oynamışdır. Bu sahədə apardığı araşdırmalar, gördüyü işlər bundan sonra neçə yüzillər keçsə də, hər zaman böyük hörmət və rəğbətlə yad ediləcəkdir. Azərbaycan ədəbiyyatının öyrənilməsində, Azərbaycan şərqünaslığının inkişafında yorulmadan çalışan fədakar alimin gərgin ədəbi fəaliyyəti və xidmətləri heç bir zaman unudulmayacaqdır. H.Araslı irsini davam etdirən Şərqşünaslıq İnstitutu və onun rəhbərliyi böyük alimin bu yöndəki xəyallarını gerçəkləşdirir, Azərbaycan şərqşünaslığını inkişaf etdirmək üçün mühüm elmi fəaliyyətlə yanaşı, gənc alimlərin də yetişməsində əlindən gələni edir və edəcəkdir. Şərqşünaslıq İnstitutunun qurucularından hesab edilən H.Araslı irsi bundan sonra da yetişən gənc alimlər tərəfindən davam etdiriləcəkdir.

Sariyya Gundoghdu

**The role of Hamid Arasli in the development of Oriental Studies of Azerbaijan**

***Summary***

Hamid Arasli is a person with a leading position in the 20th century Azerbaijani scientific and literary-social life. Hamid Arasli conducted extensive scientific searches, and dealt with literary issues, as well as, explored the influence of our powerful word masters throughout his creative activity, moreover, determined the mutual relations between the eastern nations through the art of speech. He has played a significant role in the development of oriental studies in Azerbaijan. The intense literary activity and services of the devoted scientist, who was tirelessly working in the study of Azerbaijani literature, and the development of Azerbaijan's Orientalism, will never be forgotten.